Villa Petrolea

Vikipediya, azad ensiklopediya

Villa Petrolea (lat. *Villa Petrolea*)– 19-cu əsrin sonlarında Nobel Qardaşları Neft İstehsal Cəmiyyəti (Branobel) tərəfindən şirkətin işçiləri üçün Bakı ətrafında Qara şəhərin sərhəddində salınmış yaşayış qəsəbəsidir. Həmçinin qəsəbədə yerləşən Nobel qardaşlarının şəxsi iqamətgahı da belə adlanır. Hazırda burada Nobel Qardaşları Muzeyi və bir neçə təşkilatın ofisi fəaliyyət göstərir.

Mündəricat

Tarixi
Park
Hazırki vəziyyət
Muzey
Hadisə
Qalereya
İstinadlar
Həmçinin bax

Villa Petrolea

Əsası qoyulub	1884
Açılış tarixi	25 aprel 2008
Mövzu	Tarixi muzey
Ölkə	Azərbaycan
Yerləşir	Bakı
Telefon	+99412-424-40-20
İş rejimi	11:00 AM - 7:00 PM

40°22′48″ şm. e. 49°53′39″ ş. u.

bakunobel.org (http://www.bakunobel.org)

Vikianbarda əlaqəli mediafayllar

Tarixi

19-cu əsrin sonlarında Bakının şərq ətraf əraziləri bütünlüklə sənaye bölgəsi olduğuna görə, yaşayış üçün əlverişli deyildi. Burada yalnız neft sənayesində çalışan işçilər yaşayırdılar. Maddi vəziyyəti yaxşı olan sakinlər isə şəhərin daha təmiz bölgəsində Bakının mərkəzində məskunlaşmışdılar.[1][2][3] Branobel şirkətinin inzibati-texniki işçilərini(o cümlədən Finlandiyadan, İsveçdən, Norveç və Almaniyadan da dəvət olunmuş) bu bölgəyə cəlb etmək üçün burada yaşayış üçün hər cür şəraiti olan bir qəsəbə salındı. Qəsəbə Qara Şəhərin şərq sərhəddində Keşlə[4][5] kəndində yerləşirdi.

Qəsəbənin ərazisində işçilər üçün evlər, məktəblər, teatr, xəstəxana və Nobel qardaşlarının Bakıdakı iqamətgahı tikilmişdir. 1884-cü ildə tikilmiş bu iqamətgah 1920-ci ildəki Milliləşdirməyə qədər Nobellərin mülkü olaraq qalırdı.[6]

Şirkətin işçiləri bir və ya iki mərtəbəli daş özüllü taxta kotteclərdə yaşayırdılar. Bütün kotteclər yamacdan başlayaraq dənizə doğru tikilmişdi. Məhz buna görə də hər kottecin pəncərəsi dəniz mənzərəsinə açılırdı. Qəsəbədəki ən böyük binanın aşağı mərtəbəsi ofis kimi fəaliyyət göstərirdi. Üst mərtəbədə isə klub, istirahət otağı və kitabxana yerləşirdi. Peterburqdan bağ üçün heykəllər, kitabxana üçün kitablar və rəsm əsərləri gətirilmişdir. Binalar Bizans üslubunda tikilmişdi. Otaqları isə azərbaycanlı və fars ustaların toxuduqları bahalı xalçalarla bəzəmişdilər. Zamanla burada istirahət üçün daha çox şərait yaradıldı: üzgüçülük hovuzu, tennis kortu, boulinq zalı tikildi. 1911-ci ildə isə bir neçə idman klubları da fəaliyyət göstərməyə başladı.[7]

Birinci Dünya Müharibəsinin başlaması ilə Rusiya imperiya ərazisində yaşayan alman və avstro-macar mənşəli hər kəsi sürgün etdi və bu da "*Villa Petrolea*"-ya təsirsiz ötüşmədi. Qəsəbə 1919-cu ildə millileşdirildi.[7]

Park

Qəsəbənin ərazisində 10.5 hektarlıq parkı salmaq üçün bundan əvvəl Varşavada çoxlu park və bağ salmış təcrübəli bağban E.Bekle dəvət olunmuşdur. Burdakı torpaq neftlə çirkləndiyi üçün Lənkəran uyezdindən bura bərələrlə torpaq gətirməyə başladılar. İçməli su problemini isə ballast üçün Həştərxanda qum kisəsi əvəzinə Volqa çayının suyu ilə doldurulmuş tankerlər vasitəsi ilə həll etdilər.[4][8]

Əkilən bitkiləri subtropik bölgələrdən (Tiflis, Batum, Lənkəran) və Rusiyanın, Avropanın tingliklərindən müxtəlif növ ağaclar gətirilmişdi. Parkda cəmi 80.000-ə yaxın kol və ağac, o cümlədən meyvə ağacları da əkilmişdi.

Qəsəbənin tikinti strukturu yerləşdiyi yerin relyefinə uyğun Xəzər dənizinə meylli şəkildə planlaşdırılmışdır. Əsas küçələr Xəzərin akvatoriyasına yönəldilmişdir. Bu küçələr xüsusi dəniz görüntülü meydançalara aparırdı.

Şamil Fətullayevin 1978-ci ildəki iddiasına görə, eklektik ruhda roman motivləri ilə tikilmiş terraslı, balkonlu binaları özündə cəmləyən bu yaşayış kompleksinin baş planını hazırlayan memar naməlumdur. Onun fikrinə görə, bütün plan E.Beklenin iştirakı ilə naməlum memar tərəfindən işlənib hazırlanmışdır.[4]

Park, klub, kitabxana və işçilər üçün tikilmiş evlərə ümumilikdə 250.000 rubl xərc çəkilmişdir.[9]

Sovet hakimiyyəti qurulduqdan sonra parkın ərazisi 15 hektara qədər genişləndi və 1931-ci ildə "*Rote Fahne*" adlandırıldı. Bu ad 1925-ci ildə Bakı neft işçiləri adından Berlin proletariatına göndərilən Ötürülə Bilən Qırmızı Bayrağı simvolizə edirdi. 1941-ci ildə Almaniyanın Sovet ittifaqına hücumu nəticəsində parkın adı dəyişidirildi və Nizami parkı adlandırıldı.[7]

Hazırki vəziyyət

2000-ci illərin əvvəlinə qədər "*Villa Petrolea*" ərazisində olan binalar baxımsız vəziyyətdə idilər. Nobellərin iqamətgahı və yaşayış evləri dağılmış vəziyyətdə idi və yenidən qurmaya ehtiyac duyulurdu. Digər binalar isə çoxdan sökülmüş, teatr və klub isə yanğın nəticəsində məhv olmuşdur.[5]

2004-cü ildə Nobel mirasının bərpası üçün Bakıda "*Bakı Nobel İrsi Fondu*" adlı ictimai təşkilat yaradılmışdır. 2007-ci ildə onlara Nobellərin iqamətgahını rekonstruksiya və restovrasiya etməyə icazə verilmişdir. 2008-ci ilin 25 aprelində isə yenidən bərpa olunmuş iqamətgahın açılışı olmuşdur.[6]

Muzey

Bərpa olunduqdan sonra "*Villa Petrolea*"da Nobel qardaşlarının muzeyi, beynəlxalq biznes mərkəzi və Bakı Nobel Neft Klubu yaradılmışdır. Qeyd edək ki, bu həmdə Nobel ailəsinə həsr edilmiş İsveçdən kənar ilk muzeydir.[6][10] Muzey tarixidir və neft mövzusuna həsr edilib.[6][11] Muzeydə Nobel ailəsinin istifadə etdiyi məişət və interyer əşyaları yığılıb. İqamətgahın interyeri əvvəlki sahiblərinin dövrünə nisbətən dəyişikliyə məruz qalıb, lakin bəzi hissələr (məsələn kaminlər) dəqiqliyi ilə yenidən düzəldilib. Ümumilikdə evin interyeri sadə avropa üslubundadır, ancaq bir otaq xüsusilə şərq üslubunda dizayn edilib.[12]

Hadisə

17 dekabr 2010-cu ildə "*Villa Petrolea*" iqamətgahında Lyudviq Nobelin nəticəsi Filip Nobel tərəfindən "*Nobel İnternational Fraternity Fund*" fondunun əsası qoyulmuşdur. Fond Azərbaycanda elmi dəstəkləməyi hədəfləyir. Bundan başqa, həmin gün Bakı Nobel İrsi Fondunun sədri, Toğrul Bağırova və Filip Nobelə "*Qütb ulduzu*" ordeni təqdim edilib. Toğrul Bağırov "*Qütb ulduzu*" ordenini alan ilk azərbaycanlıdır.[6]

Qalereya

Nobel Qardaşları Muzeyinin arxa tərəfi

Muzeyin yemək otağı

Muzeyin şərq otağı

Villa petrolea-nın Karl Vilhem Hegelin tərəfindən çəkilmiş şəkli

Villa petrolea-nın Karl Vilhem Hegelin tərəfindən çəkilmiş şəkli 2

Muzeyin hazırki görüntüsü

Muzeyin hazırki görüntüsü 2

Hagelin neft buruqlarını təftiş edərkən 1896-1897-ci illər Villa Petrolea

Muzeyin hazırki görüntüsü 3

Villa Petrolea 1897-ci il

Muzeyin girişi

İstinadlar

1. Azeri women in transition: women in Soviet and post-Soviet Azerbaijan. Farideh Heyat.Routledge, 2002 стр 47
2. Russian Azerbaijan, 1905—1920: The Shaping of a National Identity in a Muslim Community. Tadeusz Swietochowski. Cambridge University Press, 2004. стр 21
3. Baku, an eventful history. James Dodds Henry. Ayer Publishing, 1905
4. Ш. Фатуллаев. ГРАДОСТРОИТЕЛЬСТВО БАКУ XIX — начала XX веков. АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНСКОЙ ССР ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА (http://www.azeribooks.narod.ru/history/shamil_fatullayev/gradostroitelstvo_baku/gradostroitelstvo_baku_xix_nachala_xx_vekov.htm)
5. Azerbaijan International. The Nobels in Baku. Swedes' Role in Baku's First Oil Boom (by Brita Asbrink) (http://www.azer.com/aiweb/categories/magazine/ai102_folder/102_articles/102_nobels_asbrink.html)
6. Вебсайт Baku Nobel Heritage Fund (BNHF) and the Baku Nobel Oil Club (BNOC) (http://www.bakunobel.org/home.html)
7. Tamara Humbatova. Villa Petrolea, Monument to Nobel Family's Good Deeds in Baku (http://www.echo-az.com/index.php?aid=21295) Arxivləşdirilib (https://web.archive.org/web/20120525083725/http://www.echo-az.com/index.php?aid=21295) may 25, 2012, at the Wayback Machine. *Echo*. 8 May 2012.
8. К.И. Джафаров, Ф.К. Джафаров. ТОВАРИЩЕСТВО НЕФТЯНОГО ПРОИЗВОДСТВА БРАТЬЕВ НОБЕЛЬ (http://vivovoco.rsl.ru/VV/PAPERS/HISTORY/BRANOBEL.HTM) Arxivləşdirilib (https://web.archive.org/web/20131102033145/http://vivovoco.rsl.ru/VV/PAPERS/HISTORY/BRANOBEL.HTM) noyabr 2, 2013, at the Wayback Machine
9. Azerbaijan International. Legacy of the Oil Barons: Part II. The «Greening» of Baku by the Nobel Brothers (by Fuad Akhundov) (http://www.azer.com/aiweb/categories/magazine/23_folder/23_articles/23_oilbarons.html)
10. Известия. Старые традиции и новые проекты (https://archive.is/20120903220024/http://www.izvestia.ru/azerbaijan/article3131240/)
11. Известия. Старые традиции и новые проекты (http://www.izvestia.ru/azerbaijan/article3131240/)
12. Первый канал. Хочу знать. Выпуск от 15 июля 2010 (http://www.1tv.ru/sprojects_edition/si5719/fi4846)

Həmçinin bax

- Branobel
- Nobel mükafatı
- Nobelin tarixi

- Nobel qardaşları
- Nobelin zavodları (film, 1908)
- Nobel mükafatı laureatlarının siyahısı
- Nobel Sülh mükafatı laureatlarının siyahısı

Bakının görməli yerləri

“İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu

Bakı qalası | **Şirvanşahlar sarayı** | **Qız qalası** | **Məhəmməd məscidi** | Cümə məscidi | Çin məscidi | Cin məscidi | Multanı karvansarayı | Buxara karvansarayı

Saraylar, malikanələr və mülklər

Bakı xan sarayı | **De Burun sarayı** | **İsmailiyyə Sarayı** | Seyid Mirbabayevin sarayı | **Səadət Sarayı** | Villa Petrolea | Hacı Zeynalabdin Tağıyevin sarayı | Hacı Zeynalabdin Tağıyevin villası | Aşurbəyovun villası | Hacıyevin villası | Hacınskinin villası | Əsədullayevin villası | Əzizbəyovun villası | Səfərəliyevin villası | Muxtarovun villası | Hökumət Evi | Qrifonlu ev | † Atlantlı ev | **Bakı Şəhər İcra Hakimiyyətinin binası** | Mirzəbəyovun mədaxil evi | Ağabala Quliyevin evi | Sadıqov qardaşlarının mədaxil evi | Mələkli ev

Məbədlər

Məscidlər: **Bibiheybət məscidi** | Cümə məscidi | **Nardaran məscidi** | **Təzə Pir məscidi** | Tuba Şahi məscidi | Şeyx İbrahim məscidi | Göy məscid
Pravoslav kilsələri: **Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralı** | Bakirə Məryəmin Məsum Hamiləliyi kilsəsi (Bakı, pravoslav) | Mixail Arxangel kilsəsi | Müqəddəs Varfolomey kilsəsinin qalıqları
Katolik məbədləri: **Bakirə Məryəmin Məsum Hamiləliyi kilsəsi**
Protestant kilsələri: **Xilaskar kilsəsi**
Sinaqoqlar: Dağ yəhudilərinin sinaqoqu | Aşkenazi yəhudilərinin sinaqoqu

Muzeylər

Muzeylər: **Azərbaycan Milli İncəsənət Muzeyi** | **Qobustan dövlət tarixi-bədii qoruğu** | **Azərbaycan Xalçası Muzeyi** | **Azərbaycan Tarix Muzeyi** | **Heydər Əliyev Mərkəzi** | Azərbaycan Ədəbiyyatı Muzeyi | Azərbaycan İstiqlal Muzeyi | Arxeologiya və Etnoqrafiya Muzeyi | Azərbaycan Dövlət Kənd Təsərrüfatı Muzeyi | Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi | Azərbaycan Dövlət Din Tarixi Muzeyi | Azərbaycan Geologiya Muzeyi |

Cəlil Məmmədquluzadənin ev-muzeyi | Hüseyn Cavidin ev-muzeyi | Abdulla Şaiqin ev-muzeyi | Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyi | Üzeyir Hacıbəylinin Ev Muzeyi | Səttar Bəhlulzadənin ev-muzeyi | Səməd Vurğunun ev-muzeyi | Tahir Salahovun ev–muzeyi | Əzim Əzimzadənin ev-muzeyi | Cəfər Cabbarlının ev-muzeyi | Miniatür Kitab Muzeyi | Villa Petrolea
Digər: Bakı zooparkı | Bakı planetariumu

Heykəllər və memoriallar

Nizami Gəncəvinin heykəli | Mirzə Fətəli Axundovun heykəli | Həzi Aslanovun heykəli | Mirzə Ələkbər Sabirin heykəli | Üzeyir Hacıbəyovun heykəli | Səməd Vurğunun heykəli | Füzulinin heykəli | Nəriman Nərimanovun heykəli | Mehdi Hüseynzadənin heykəli | Mikayıl Müşfiqin heykəli | Nəsiminin heykəli | Cəfər Cabbarlının heykəli | Həsən bəy Zərdabinin heykəli | Ayna Sultanovanın heykəli | Şah İsmayıl Xətainin heykəli | Hüseyn Cavidin heykəli | Yusif Məmmədəliyevin heykəli | Xaqaninin heykəli | Əzim Əzimzadənin heykəli | Tofiq Bəhramovun heykəli | Corce Eneskunun heykəli | Heydər Əliyevin heykəli | Əlişir Nəvainin heykəli | Taras Şevçenkonun heykəli | Atatürkün heykəli | Zivər bəy Əhmədbəyovun heykəli | Motsartın heykəli | Abbasqulu ağa Bakıxanovun heykəli | Fikrət Əmirovun heykəli | Bülbülün heykəli | Koroğlunun heykəli | Nikola Teslanın heykəli | Qara Qarayevin heykəli | Azad qadın heykəli | Bakı işçisi heykəli | Xocalı soyqırımı qurbanlarının xatirə heykəli | 20 Yanvar abidə-kompleksi | Rixard Zorgenin xatirə abidəsi

Teatrlar, kinoteatrlar, konsert zalları, sirklər və stadionlar

Teatrlar: **Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı** | **Azərbaycan Dövlət Rus Dram Teatrı** | Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı | Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı | Azərbaycan Dövlət Kukla Teatrı
Kinoteatrlar, konsert zalları: Nizami Kino Mərkəzi | Park Cinema | CinemaPlus | Heydər Əliyev Sarayı | Bakı Kristal Zalı | Gülüstan Sarayı | Azərbaycan Dövlət Filarmoniyası
Stadionlar: Bakı Olimpiya Stadionu | Tofiq Bəhramov adına Respublika Stadionu | Şəfa stadionu | Dalğa Arena | Bayıl stadionu | Azərbaycan Voleybol Mərkəzi | Milli Gimnastika Arenası

Meydanlar

Azadlıq meydanı | AzNeft meydanı | Fəvvarələr meydanı

Bağ və parklar

Bakı bulvarı | Qış bulvarı | Şəhidlər Xiyabanı | Şəhriyar parkı | Nizami parkı | Dədə Qorqud parkı | Durnalar parkı | Heydər Əliyev parkı | Port Baku parkı | Filarmoniya Bağı | Sabir bağı | Xaqani bağı | Sahil bağı | Səməd Vurğun bağı | Əliağa Vahid bağı

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Villa_Petrolea&oldid=4766855"

Bu səhifə sonuncu dəfə 3 iyun 2019 tarixində, saat 21:45-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.